

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
29 aprel 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


BDU professorunun məqaləsi yüksək impakt faktorlu jurnalda dərc olunub
səh. 2

23 aprel - Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür
səh. 3

“Regional İnkişaf” İctimai Birliyi və Bakı Dövlət Universiteti birgə sosial aksiya keçirdi
səh. 3

BDU-da tədrisin məsafədən təşkili uğurla davam etdirilir
səh. 5

Anar İsgəndərov, Bəxtiyar Nəbiyev
Azərbaycan xalq cümhuriyyətinin bolşeviklər tərəfindən işğalı
səh. 5

Məhəmmədəli Ramazanov
İsmət Əhmədov
Bəşəriyyətin Koronavirus (COVİD-19) düşməni
səh. 8




Prezident İlham Əliyev tanınmış alim Abuzər Xələfovun vəfatı ilə əlaqədar nekroloq imzalayıb

» səh. 2



Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın doğum günü

» səh. 2



Cahangir Məmmədli
Koronovirus tətilləri

» səh. 3



Azad Qurbanov
Nigar İsmayılova
Görkəmli , alim sevimli müəllim, müdrik el ağsaqqalı - professor Abuzər Xələfov

» səh. 4



Ləzifə Qasımova
Görkəmli pedaqoq, müdrik şəxsiyyət

» səh. 5

## Bakı Dövlət Universitetinin rektoru Universitetin kollektivi adından Prezident İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb



Zati-aliləri, möhtərəm cənab Prezident.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi varisi və layiqli davamçısı kimi Siz ölkəmizə uğurla rəhbərlik edərək Ulu Öndərin memarı olduğu müstəqil Azərbaycan Respublikasını dünyanın qabaqcıl ölkələri sırasına çıxarmısınız. Sizin uğurlu daxili və xarici siyasətiniz nəticəsində bu gün Azərbaycan təkcə regionda deyil, dünya miqyasında lider dövlətlərdən və Avropanın mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir.

Müdrik siyasi kursu yeni dövrün tələblərinə uyğunlaşdıraraq və iqtisadi potensialı intellekt kapitalına çevirmək məqsədini qarşıya qoyaraq Siz digər sahələrlə yanaşı, ölkəmizdə elmi-texniki potensialın qorunub saxlanılması və modernləşdirilməsi, elm, təhsil və səhiyyə sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, cəmiyyətdə ziyalı təbəqəsinin nüfuzunun artırılması istiqamətində də çox mühüm qərarlar qəbul etmisiniz.

Hazırda inkişaf etmiş bir sıra dövlətlər və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən görülən tədbirlərə baxmayaraq, koronavirus (COVID-19) infeksiyasının dünyada yayılmasının qarşısını almaq hələ də mümkün olmamışdır. Lakin Sizin uğurlu siyasətiniz və qətiyyətli addımlarınız sayəsində ölkəmizdə pandemiyaya qarşı mübarizədə ciddi nəticələr əldə olunmuşdur. Hadisələrin axarını uzaqgörənliklə, dəqiq və düzgün təhlil edərək vaxtında verdiyiniz qərarlar, Sizin təşəbbüsünüz və rəhbərliyinizlə operativ olaraq həyata keçirilən qabaqlayıcı tədbirlər ölkəmizdə koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması və vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün misilsiz əhəmiyyət kəsb edir.

Ciddi karantin tədbirlərinin tətbiqi, infeksiyanın diaqnostikası məqsədilə testlərin vaxtında alınması və yoxlamaların aparılması, infeksiyaya yoluxmuş insanların müalicəsinin operativ təşkili, qoruyucu vasitələrin istehsalı və zəruri tibbi bazanın gücləndirilməsi, yeni xəstəxanaların tikilərək istifadəyə verilməsi istiqamətində görülən işlər xüsusi qeyd edilməlidir. Eyni zamanda, koronavirusa yoluxanlara xidmət göstərən həkimlərin və aidiyyəti üzrə pandemiya ilə mübarizə sahəsində çalışan işçilərin əməkhaqqının əhəmiyyətli dərəcədə artırılması, bu çətin günlərdə aztəminatlı insanlara və sosial cəhətdən həssas qrupa aid edilən ailələrə dövlət qayğısının göstərilməsi, bir sıra genişmiqyaslı sosial layihələrin həyata keçirilməsi xalq-iqtidar birliyinin bariz təzahürüdür və qədirbilən xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Sizin və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevanın xalqımıza etdiyiniz çoxsaylı səmimi müraciətləriniz milli həmrəyliyimizin və xalqımızın ölkə başçısına olan sarsılmaz inamının daha da güclənməsinə səbəb olmuşdur.

Pandemiya dövründə ölkədə iqtisadi sabitliyi təmin etmək, pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə həyata keçirilən tədbirlər inkişaf etmiş bir sıra dünya dövlətləri tərəfindən də maraqla qarşılanır və nümunə kimi qəbul edilir.

Sizin müdrik siyasətiniz nəticəsində Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Hələ mart ayının əvvəllərində bu təşkilatın aparıcı mütəxəssislərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdə olmuş, atılan addımları müsbət qiymətləndirmiş və Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Sizin təşəbbüsünüzlə videokonfrans vasitəsilə Türk Şurasının dövlət başçıları səviyyəsində fövqəladə Zirvə görüşünün keçirilməsi, həmçinin bir sıra dövlət başçıları ilə müxtəlif formatlarda müzakirələrin aparılması koronavirus pandemiyası ilə mübarizədə beynəlxalq əməkdaşlıq üçün zəmin yaratmışdır. Şübhə etmirik ki, Sizin təşəbbüsünüzlə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçiriləcək Zirvə görüşü də dünya dövlətlərinin bu mübarizədə səfərbər olması və beynəlxalq həmrəyliyin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Möhtərəm cənab Prezident, Bakı Dövlət Universitetinin kollektivi əmindir ki, Sizin qətiyyətli addımlarınız, əhalimizin sağlamlığının qorunması istiqamətində apardığınız siyasət və xalq-iqtidar birliyi sayəsində Azərbaycan xalqı bu ağır vəziyyətdən, bu böyük sınaqdan şərəflə çıxacaqdır. Bu yolda Sizə möhkəm cansağlığı və daha böyük uğurlar arzulayırıq. Allah Sizi və ölkəmizi qorusun.

Bakı Dövlət Universitetinin çoxminli professor-müəllim heyəti və tələbələri adından dərin hörmət və ehtiramla,

**Elçin Babayev, rektor.**
**Azərbaycan Respublikası, Bakı şəhəri.**



Qərənfil Dünyaminqızı
Şahidlərsiz keçirilən məhkəmədə ona ölüm hökmü kəsilib

» səh. 6



Məti Osmanoğlu
İmtahan
Və ya tarixin insanlığa keçdiyi ibrət dərsi

» səh. 8



Hacıbaba Mustafayev
Sağ olun, müəllimlərimiz!

» səh. 8



# Prezident İlham Əliyev tanınmış alim Abuzər Xələfovun vəfatı ilə əlaqədar nekroloq imzalayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tanınmış alim Abuzər Xələfovun vəfatı ilə əlaqədar nekroloq imzalayıb.

Başsağlığı mətnində deyilir: "Azərbaycanın təhsil ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycanda kitabxana işi üzrə tanınmış tədqiqatçı, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov 2020-ci il aprelin 27-də ömrünün 89-cu ilində vəfat etmişdir.

Abuzər Xələfov 1931-ci il dekabr ayının 25-də Qərbi Azərbaycanın Göyçə mahalındakı Cil kəndində anadan olmuşdur. O, Göyçə mahalının Toxluca kəndində orta məktəbi bitirdikdən sonra 1950–1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1955-ci ildə Azərbaycan Dövlət Universitetində başlayan Abuzər Xələfov bütün sonrakı taleyini bu təhsil ocağı ilə bağlayaraq, burada müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışmışdır. O, 1961-ci ildə Azərbaycanda kitabxana işinin tarixi mövzusunda namizədlik və 1975-ci ildə doktorluq dissertasiyaları müdafiə etmişdir. Respublikamızda ali təhsilli kitabxanaçı-biblioqraf və kitabxanaçı kadrların hazırlığını həyata keçirən fakültənin yaradılmasında Abuzər Xələfovun əvəzsiz xidmətləri vardır. Abuzər Xələfovun fəal iştirakı ilə 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilmiş və o, fakültənin ilk dekanı seçilmişdir. Abuzər Xələfov 1962–1970-ci və 1980–1995-ci illərdə həmin fakültənin dekanı, eyni zamanda, 1963-cü ildən 2016-cı ilədək uzun dövr ərzində universitetin kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycanda kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf yolu professor Abuzər Xələfovun kitabxana-informasiya fəaliyyəti üçün elmi-təcrübi əhəmiyyətə malik tədqiqatlarında başlıca yer tutmuşdur. Alim ölkəmizdə kitabxana işi quruculuğunun müxtəlif problemlərindən bəhs edən çoxsaylı araşdırmaları ilə bu sahənin elmi əsaslar üzərində qurulmasında mühüm rol oynamışdır. Onun kitabxanaşünaslıq sahələrinin formalaşması, həmçinin geniş profilli kitabxana işçilərinin hazırlanması ilə bağlı fikir və mülahizələri bu istiqamətdə məsələlərin optimal həllinə töhfə olmuşdur.

Abuzər Xələfov kitabxana işinin tarixinə, kitabxanaşünaslığın nəzəriyyəsi və metodikasına dair 500-ə yaxın əsərin, o cümlədən monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin müəllifi idi. O, yüksək hazırlıqlı mütəxəssislərin yetişdirilməsi işinə xüsusi diqqət göstərirdi. Kitabxanaçılıq və biblioqrafiyaşünaslıq istiqamətləri üzrə respublikada formalaşmış kadrların əksəriyyəti onun yetirmələridir.

Professor Abuzər Xələfovun zəngin pedaqoji-elmi fəaliyyəti layiqincə qiymətləndirilmişdir. O, "Əməkdar mədəniyyət işçisi" və "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şərəf" və "Şöhrət" ordenləri ilə təltif edilmişdir.

Nüfuzlu pedaqoq və alim, səmimi insan Abuzər Alı oğlu Xələfovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!".

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Ceyhun Bayramov
Elçin Babayev
Anar İsgəndərov
İzzət Rüstəmov
Kərim Tahirov

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 aprel 2020-ci il*

# Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın doğum günü



Bu gün Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 97-ci ildönümüdür.

1923-cü il 28 aprel tarixində Naxçıvan Muxtar Respublikasının Şahtaxtı kəndində görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyeva, Azərbaycan oftalmologiya elmi sahəsində ilk qadın akademik olub. Yüzlərlə nursuz gözə işıq bəxş edən Zərifə xanım Əliyeva Azərbaycan oftalmologiya elminin beynəlxalq aləmdə tanınmasında müstəsna rol oynayıb. Onun elmi tədqiqatları, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, pedaqoji fəaliyyəti, peşəkar elmi kadrların yetişdirilməsindəki xidmətləri danılmazdır. Akademik Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.

Görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin, peşə oftalmologiyasının əsasını qoyub. O, əmək fəaliyyəti dövründə hər zaman ciddi problemlərə toxunub, göz xəstəliklərinin qarşısını almaq və onları ən effektiv yolla müalicə etmək üçün əlindən gələni edib. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım Əliyeva, "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" adlı namizədlik dissertasiya işini müdafiə edərək, bu sahə üzrə ixtisaslaşıb. Onun təklif etdiyi müalicə metodu tezliklə bütün respublikada tətbiq edilib və ölkəmiz bu bəladan xilas olub. Buna görə də Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi məhz Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. İllər boyu apardığı klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanım Əliyevanın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində - H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanlarının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" adlı iki monoqrafiya hazırlamışdır.

Oftalmologiyanın digər aktual istiqamətlərinə də diqqət yetirən alim, diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi, onun patologiyası, gözün virusla zədələnməsi, görmə orqanında bədxassəli şişlərin diaqnostikası məsələlərini araşdıraraq, göz xəstəliklərinin müalicəsində effektiv üsullar əldə edib. Azərbaycan tibb elmində silinməz izlər qoyan Zərifə xanım "Terapevtik oftalmologiya", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" kimi əsərlərin, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin, elminin inkişafına həsr edən böyük söz və sənət adamları - Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və başqa görkəmli şəxsiyyətlərlə ailəvi və mənəvi yaxınlıq telləri ilə sıx bağlı olan bir mühitdə boya-başa çatan Zərifə xanım özündə Azərbaycan ziyalısının ən gözəl nümunəsini təcəssüm etdirirdi. Zərifə xanım Əliyevanın fitri istedada malik novator alim kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, alim və həkimi üçün həyat, mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

1985-ci il aprel ayının 15-də akademik Zərifə xanım Əliyeva əbədiyyətə qovuşmuşdur.

Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə sahələrində, eləcə də ictimai-siyasi həyatda misilsiz xidmətlərinə görə xalqımızın qəlbində, ölkəmizin tarixində görkəmli alim, nümunəvi, qayğıkeş pedaqoq, şəfqətli həkim, nurlu Azərbaycan xanımı kimi qalacaq, daim anılacaq, onun şərəfli ömür yolu və zəngin irsi həmişə örnək olacaqdır.

# BDU professorunun məqaləsi yüksək impakt faktorlu jurnalda dərc olunub




Bakı Dövlət Universitetinin (BDU) Biologiya fakültəsinin Biofizika və molekulyar biologiya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllifi olduğu " Mapping local patterns of childhood overweight and wasting in low and middle-income countries between 2000 and 2017" ("2000 - 2017-ci illərdə aşağı və orta gəlirli ölkələrdə uşaq yaşlarında artıq çəki və çəki azlığı hallarının lokal modelinin xəritələşməsi") adlı məqalə "Nature Medicine" Beynəlxalq jurnalında dərc olunub. Məqalədə 105 aşağı və orta gəlirli ölkələrdə 5 yaşınadək uşaqlar arasında stres amil kimi artıq çəki və çəki azlığının qlobal səhiyyəyə təsiri mövzusu araşdırılıb.

1995-ci ildən nəşr olunan "Nature Medicine" tibb sahəsində dünyanın ən məşhur və nüfuzlu jurnallarından biridir və impakt faktoru 30.641-dir. (2018 Journal Citation Reports®, Clarivate Analytics 2019)

# 23 aprel - Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür

**Azərbaycan Respublikasında bu əlamətdar tarix 1997-ci ildən qeyd olunur.**

Bu gün, 23 aprel kitablardan və mütaliədən zövq almağı təşviq edən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Müəllif hüquqları anlayışı ilk dəfə Almaniyada meydana çıxmışdır. Əvvəllər yalnız ədəbiyyat sahəsinə aid edilən bu ifadə 1870-ci il iyunun 11-dən etibarən mülkiyyətin bütün formalarını birləşdirmişdir.

YUNESKO-nun 1996-cı il tarixli qərarı ilə hər il bütün dünyada 23 aprel dünya şöhrətli dramaturqlar Vilyam Şekspir (1564-1616), Migel de Servantes (1547-1616) və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanın şərəfinə Beynəlxalq Kitab və Müəllif Hüquqları günü kimi qeyd edilir. Hər üç yazıçın onların ölüm günü - 23 aprel 1616-cı il tarixi birləşdirir.

Azərbaycan Respublikasında bu əlamətdar tarix 1997-ci ildən qeyd olunur.

Keçmişlə gələcək arasında əlaqə, nəsillər və mədəniyyətlər arasında bir körpü olan kitablara və müəlliflərə ehtiram məqsədi ilə təsis olunan Ümumdünya Kitab və Müəllif Hüquqları günü cəmiyyəti, xüsusilə də gəncləri mütaliədən zövq almağa, bəşəriyyətin sosial-mədəni inkişafında əməyi olmuş sənətkarların əvəzsiz irsinə hörmətlə yanaşmağa çağırış günüdür.

Hər bir yaradıcı insanın öz əsərinə müəllif hüququ vardır. Bu, vətəndaş hüququnun elm, ədəbiyyat, incəsənət əsərlərinin yaradılması və sonrakı fəaliyyəti ilə əlaqədar münasibətlərini tənzimləyən bir bölməsidir və müəllif hüquqlarının qorunması ilə bağlı beynəlxalq konvensiyalarla tənzimlənir.

Ümumdünya Kitab və Müəlliflik Hüququ gününə həsr olunan tədbirlərin keçirilməsinin əsas məqsədi kitab və müəlliflik hüququnun əhəmiyyətini bir daha vurğulamaq, informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, mədəni ənənələrin qorunub saxlanmasının vacib olduğunu təsdiqləməkdir.

# “Regional İnkişaf” İctimai Birliyi və Bakı Dövlət Universiteti birgə sosial aksiya keçirdi

Koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən 2020-ci ilin martın 24-dən aprelin 20-dək ölkəmizdə elan edilən xüsusi karantin rejimi müddətində evdən çıxması qadağan olunan 65 yaşdan yuxarı tənha yaşayan şəxslərə sosial qayğı göstərilməsi davam etdirilir. Bu səbəblə Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi ilə Bakı Dövlət Universiteti (BDU) birgə sosial aksiya keçirib. Kampaniya ölkəmizdə koronavirusun yayılmasının qarşısının alınması üçün görülən tədbirlərə, təşkil olunan yardım aksiyalarına, ölkə rəhbərliyinin çağırışlarına dəstək məqsədi ilə təşkil olunub.

Yardım aksiyası çərçivəsində Bakı şəhərinin müxtəlif ərazilərində yaşı 65-dən yuxarı olan xüsusi risk qrupuna aid 100 şəxsə müxtəlif ərzaq məhsullarından ibarət sovqat paylanılıb.

Yardım alanlar ölkədə hökm sürən sabitlik və əmin-amanlıqdan razılıqlarını ifadə ediblər, karantin günlərində onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



Aksiya zamanı yardım olunanlara Koronavirus (COVID-19) infeksiyasının ölkədə yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkədə elan edilən xüsusi karantin rejiminin qaydaları bir daha xatırladılıb.

# BDU-nun gənc tədqiqatçıları Üçüncü Respublika İnnovasiya Müsabiqəsinin qalibi olublar

Bakı Dövlət Universitetinin (BDU) gənc tədqiqatçıları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təşkil olunan Üçüncü Respublika İnnovasiya Müsabiqəsinin qalibi olublar. Qaliblər innovativ ideyaların prioritetliyi, reallaşdırılmasının mümkünlüyü əsas götürülməklə müəyyən edilib.

BDU-nun Biologiya fakültəsinin doktorantı Lalə Məmmədova “The Secret of Longevity” adlı layihə ilə birinci, Kimya fakültəsinin doktorantı Günel Əliyeva “Nanomembrane” adlı layihə ilə ikinci yerə layiq görülüblər.

Müsabiqə İqtisadiyyat Nazirliyi və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyi tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi, innovasiyaların həvəsləndirilməsi, həmçinin "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası və “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri”nin icrasına dəstək məqsədilə təşkil olunub.

Koronavirus (COVID-19) pandemiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi rejim qaydalarına uyğun olaraq, Üçüncü Respublika İnnovasiya Müsabiqəsinin təltifetmə mərasimi təxirə salınıb.



# Koronovirus tətilləri

Bu dünyada Universitet-müəllim-tələbə birliyini heç bir qüvvə ayıra bilməz.

...Hər yay növbəti tətilə çıxanda xəfif bir kədərə bürünmüşəm: iki ay tələbələrimizdən ayrı olacağıq - kədərinə. Amma mən o “iki aya” öyrəncəliyəm və təhsilimizin bütün qütblərinə aid o “iki ayı” başa vurmaq çox da çətin olmur. Di gəl ki, bu zəhrimar koronavirusla bağlı zamanı bilinməyən “qış tətili” məni çox sarsıtdı. Universitetimizin dəhlizlərindən sizin gülüşünüz, hay-küyünüz yox olub, auditoriyaların qapıları ağzı günə qalıb və bu səssizlik mənim içimdə bir ağrıya çevrilib...

Ölüm haqdır, kim bilməz ki? Bu virus da keçdiyimiz min bir sınaqdan biridir - Allaha sığınmaq anıdır. Bu, bir müəllimin doğmalardan, qohum əqrabalardan savayı tələbələrindən də ayrı düşmək sınağıdır. “Sınaq” leksemi isə dözümdən tutmuş ləyaqətədək çox keyfiyyətlər tələb edir. Bütün bunları yaşayıb tələbələrimin gecikənini, icazəsiz dərsdən qalanını, seminara hazır gəlməyənini, dərsdə telefon oynadanını, səs salıb mühazirəyə mane olanını... tezliklə görmək arzusu keçir ürəyimdən. Kafedramızın üzünüzə həmişə açıq qapılarını indi bağlı görəndə ürəyim dözmür. Sizsiz darıxan o kafedra, ayda bir dəfə kitab almağa getdiyimiz “Libraff”in da oxucusuz rəfləri, fakültəmizin çox sevdiyi “525-ci qəzet” , “Şərq” qəzetləri, telekanallarımızın çeşidli proqram formatları, fakültəmizin bütün kollektivi bu “tətilin” bitməsini, tələbələrə həsrətin sonunu gözləyir.

Hərdən çox işlətdiyimiz, gündəlik həyatımızın məzmununu təşkil edən elə sözlər, elə anlayışlar olur ki, onun mahiyyətinə varmadan öyrəncəli bir şey kimi yanından etinazsızcasına ötüb keçirik. Qəflətən hansısa zərurətdən belə sözlərin mahiyyətinə, onların nə qədər böyük məzmun və böyük anlam kəsb etdiyinin fərqinə varanda onların möhtəşəmliyi həyatın özü qədər qiymətli olduğu anlaşılır. Belə sözlər içərisində universitet termini çox öndə gedir. Universitet sözü əksər xalqların dilində az qala eyni şəkildə işlənir. Bakı Dövlət Universiteti bu məzmunu özündə daşıyan dünya universitetləri sırasında yer tutur.

Əziz tələbələrimiz! Sabah siz də bu universitetin məzunu olmağınızla fəxr edəcəksiniz. Bu gün təxminən bir ay olar ki, dünyanı təşvişə salan koronovirus pandemiyası bizi universitetimizdən, sizdən ayrı salıb. Bu müvəqqəti ayrılıq bizi heç vaxt sındıra bilməz. Çünki, universitet-tələbə-müəllim birliyini, müqəddəsliyini heç nə poza bilməz. Universitet rəhbərliyinin, müəllimlərinizin qayğısı həmişə sizinlədir.

İllərin təcrübəsini qazanmış bir böyük kimi, bir müəllim kimi sizə tövsiyələrim var:

- Dövlətimizin tədbirlərinə, tətbiq olunan qaydalara əməl edin;
- BDU saytında və BDU TV youtube kanalında yerləşdirilmiş mühazirələri dinləməyi unutmayın;
- Bir-birinizlə dostluq əlaqələrini online şəkildə daha da gücləndirin;
- Müəllimlərinizlə daim əlaqə saxlayın;
- Müəllimlərin sizə məsləhət bildiyi dərslik və dərs vəsaitlərini ən azı PDF variantında oxuyun;
- Və bir də ən əsası özünüzü qoruyun!

İnşallah semestrin sonuna düşən imtahanlardan uğurla çıxmaq üçün bütün imkanlardan istifadə etmək lazımdır. Mən inanıram ki, Təhsil Nazirliyinin imtahanlarla bağlı çox sərfəli qərarları, göstərişləri olacaq. Və bu qərarlar birbaşa tələbələrimizin xeyrinə olacaq. Universitet gənclərin özünüqurma məkanıdır. Bu işdə tanrı bizə kömək olsun. Bir müəllim kimi ən müqəddəs arzum sizi təzliklə universitet auditoriyalarında görməkdir. Tanrı Universitetimizin auditoriya və dəhlizini boşluqdan, səssizlikdən xilas etsin, sizsizlikdən xilas etsin.

Mənim əziz tələbələrim! Öyrəşmədiyim bu uzun qış “tətilindən” çox usandım. Mən sizi balam kimi, nəvəm kimi gözləyirəm. Həyatımda heç vaxt belə darıxmamışdım. Aprel ayı millətimizə düşərli aydır. Tanrı apreli görüşünü bizə çox görməsin.

Sizə böyük hörmət və sevgi ilə

**Cahangir Məmmədli**
**Professoru**

# BDU-nun Psixoloji Yardım Sektoru ehtiyacı olanlara online psixoloji dəstək göstərir

Dünyanı əsarəti altına alan yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqədar ölkəmizdə elan olunan karantin rejimi davam edir. Gündəlik həyat tərzinin pozulması, infeksiya ilə bağlı yaranan qorxu və həyəcan kimi mənfi hallarla əlaqədar insanların həyat fəaliyyətində kəskin dəyişikliklər, bəzən psixoloji problemlər, narahatlıqlar özünü göstərir. Bu səbəbdən BDU-nun Psixoloji Yardım Sektoru evdə qalan tələbələrin, eləcə də əməkdaşların mənəvi-psixoloji vəziyyətini nəzərə alaraq rəsmi instagram səhifəsi vasitəsilə onlara dəstək göstərir.

Azərbaycan ali məktəbləri arasında ilk dəfə olaraq BDU-da hələ 2019-cu ilin dekabrında yaradılan psixoloji yardım xidmətinin məqsədi əməkdaş və tələbələrin peşəkar şəxsi inkişaf və yüksəlişinə kömək etmək, onların psixoloji müdafiəsini təmin etmək, psixi sağlamlığını qorumaq, tələbələrin öz bacarıq və qabiliyyətlərinin üzə çıxarmasına yardımçı olmaqdır.

Psixoloji Yardım Sektorunda tələbələrdə yarana biləcək stres və stresin idarə olunması, emosional və psixi böhranın qarşısının alınması istiqamətində xidmətlər həyata keçirilir. Eyni zamanda universitetin Sosial elmlər və psixologiya fakültəsinin IV kurs psixoloq-tələbələri tədris təcrübəsini online formada Psixoloji Yardım Sektorunda yüksək peşəkarlıq və məsuliyyətlə yerinə yetirirlər.



# GÖRKƏMLİ ALİM, SEVİMLİ MÜƏLLİM, MÜDRİK EL AĞSAQQALI - PROFESSOR ABUZƏR XƏLƏFOV



Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Prezidentinin "Fərdi təqaüdçü"sü, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin Prezidenti, Bakı Dövlət Universitetinin fəxri professoru, tarix elmləri doktoru, "Şöhrət" və "Şərəf" ordenli Abuzər Alı oğlu Xələfov 70 il milli mədəniyyətimizə şərəflə xidmət edib.

Professor Abuzər Xələfov özünün çoxşaxəli fəaliyyəti ilə xalqının xidmətində sədaqətlə dayanıb. Bu fəaliyyətin hər bir istiqaməti öz fundamentallığı, məzmun rəngarəngliyi, mahiyyət dolğunluğu ilə geniş xarakterizə edilən mütərəqqi istiqamətlər kimi qiymətləndirilir. Bu istiqamətlərin hər biri haqqında ayrı-ayrı dövrlərdə müxtəlif mütəxəssislər, elm-mədəniyyət xadimləri, peşə-sənət adamları, təhsil işinin nümayəndələri geniş bəhs etmiş, alimin kompleks fəaliyyətinin müxtəlif tərəflərinə işıq salmışlar. Biz də öz növbəmizdə böyük ustadımızın yüksək amallar, uca hisslər, müqəddəs ideyalarla əlamətdar olan şərəfli ömrünün, mənalı həyatının, müstəsna fəaliyyətinin olduqca mühüm istiqamətindən - ali kitabxanaçılıq-biblioqrafiya-informasiya peşə-ixtisas təhsili sahəsindəki xidmətlərinin bir sıra komponentləri haqqında bir ümumiləşdirmə aparmaq fikrindəyik. Qeyd edək ki, böyük alimin həyat və fəaliyyətinin müxtəlif aspektləri sırasında müstəsna yer tutan bu istiqamətin bütün komponentləri haqqında müfəssəl bəhs etmək olduqca böyük məsuliyyət tələb edir.

Professor Abuzər Xələfovun elmi-pedaqoji fəaliyyətində kitabxanaçı kadrların hazırlanmasının aktual problemləri mühüm yer tutur. O, kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb tətbiq etməklə məşğul olmuşdur. Professor Abuzər Xələfov bu istiqamətdə yazıb nəşr etdirdiyi çoxsaylı məqalə və monoqrafiyalarında, habelə elmi məclislərdəki məruzə və çıxışlarında Azərbaycan Respublikasında ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır. Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı işlədiyi dövrdə o, fakültəyə tələbə qəbulunun sayının ildən-ilə artırılmasına, Azərbaycan bölməsinin qiyabi və axşam şöbələrinin, həmçinin rus şöbəsinin açılmasına, qısası, elm və tədris sahəsində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsinə nail olub. Milli kitabxanaşünaslıq elminin məhək daşı, kitabxanaçılıq-biblioqrafiya-informasiya təhsilinin fenomen memarı, elm və mədəniyyətimizin böyük ağsaqqalı, professor A.Xələfovun qurucusu olduğu Kitabxanaçılıq-informasiya fakültəsi XX əsrin II yarısından başlayaraq respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə elmi-tədqiqat işinin mərkəzinə çevrilib. Həmin elm sahələrində çalışan mütəxəssislər fundamental elmi tədqiqatlar aparıb, doktorluq və namizədlik dissertasiyaları müdafiə edib, yüzlərlə elmi məqalə, monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri çap etdiriblər.

Ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanınan professor A.Xələfov istər respublikamızda, istərsə də Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edərək, bu sahəyə öz sanballı töhfəsini verib. Professor A.Xələfov Respublika Təhsil Şurasının, Ali Təhsil üzrə Vahid Şuranın Rəyasət Heyətinin üzvü kimi, həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin kitabxanaçılıq-biblioqrafiya təhsili üzrə Vahid Şurasının bölmə sədri kimi ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində də səmərəli fəaliyyət göstərərək, məqsədyönlü elmi tövsiyələr formalaşdırıb.

Professor A.Xələfov "Kitabxanaçılıq informatikası", "Kitabxanaçılıq pedaqogikası", "Kitabxanaçılıq psixologiyası", "Kitabxana iqtisadiyyatı", "Kitabxanaçı peşəsi" kimi kitabxanaşünaslıq sahələrinin formalaşmasına, geniş profilli kitabxana işçilərinin hazırlanmasına dair perspektivli ideya və təkliflər verib. Bu isə öz növbəsində Bakı Dövlət Universitetində yeni ali təhsil sisteminin-bakalavriatura və magistratura pillələrinin əsasını təşkil edib. O, eyni zamanda BDU-da kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və informatika fənlərinə dair tədris plan və proqramlarının əsas müəllifidir. Kitabxanaçılıq-informasiya fakültəsinin magistraturasında dissertasiya tədqiqatları mövzularının işlənib hazırlanması prosesi də məhz professor A.Xələfovun rəhbərliyi altında keçirilib. O, pedaqoji fəaliyyəti dövründə demək olar ki, kitabxanaşünaslığa dair bütün fənləri tədris edib. Alim eyni zamanda həm ayrı-ayrı kitabxanalarda, həm də fasiləsiz fəaliyyət göstərən mədəniyyət işçilərinin ixtisasartırma kurslarında kitabxana işçiləri qarşısında mühazirələr oxuyub. Professor A.Xələfov mühüm kitabxanaşünaslıq və biblioqrafiya fənləri silsiləsi üzrə bütün dərsliklərin, proqramların, tədris və metodik vəsaitlərin müəllifi, həmmüəllifi, redaktoru, yaxud tərcüməçisi olub. Xüsusilə yeni tarixi şəraitdə professor A.Xələfovun rəhbərliyi ilə Azərbaycanda ali kitabxanaçılıq təhsilinin yeni konsepsiyası əsasında kitabxanaşünaslıq fənləri silsiləsi proqramlarının yeniləşdirilməsi üzrə xeyli işlər görülüb.

Çoxillik elmi-nəzəri və pedaqoji fəaliyyətində həmişə zamanla səsləşən başlıca aktual məsələlərin reallaşdırılmasını öz iş prinsipinin başlıca əsaslarından biri kimi müəyyən edən A.Xələfov müasir şəraitdə - yeni informasiyalaşdırılmış cəmiyyət şəraitində bütün sahələrdə olduğu kimi, kitabxana işində də müasir texnologiyaların tətbiqini, yeni qabaqcıl texnoloji vasitələrdən, informasiya texnologiyalarından istifadənin zəruriliyini əsaslandırmağa çalışmış və bu istiqamətdə konkret fundamental-əməli addımlar atmışdı. 1999-cu ildə professor A.Xələfov Azərbaycanda ilk dəfə olaraq Kitabxanaçılıq-informasiya fakültəsinin nəzdində "Kitabxanaların kompüterləşdirilməsi Elmi-Tədqiqat Laboratoriyası"nın yaradılmasına nail oldu.

Görkəmli alim, böyük müəllim Abuzər Xələfov öz tələbələrinə obyektivliyi, səmimiyyəti, mehribanlığı və xeyirxahlığı ilə bağlanan, onların müdafiəsində dayanan, doğma övladları kimi hər cür qayğı və diqqətini əsirgəməyən yüksək səviyyəli şəxsiyyət, mahir pedaqoq olub. Professor A.Xələfov yazırdı: "Şüurlu həyatım və fəaliyyətim boyu qazandığım ən böyük sərvətim mənim tələbələrimdir. Tələbə-müəllim münasibəti təhsil sisteminin həmişə aparıcı həlqələrindən biri olmuşdur. Mən bütün şüurlu həyatım boyu bu münasibəti böyük pedaqoqların dediyinə uyğun olaraq ən yüksək, ən ülvi, ən təmiz, ən pak münasibət kimi qoruyub saxlamağa çalışmışam. Tələbələrim mənim iftixarımdır. Mən onlarla öyünür, özümü böyük və zəngin mənəvi sərvətin sahibi hesab edirəm. Tələbələrin mənə olan səmimi hörməti həmişə qəlbimi fərəhləndirir, məni cavan saxlayır. Azərbaycan mədəniyyətinin təbliğatçıları, görkəmli, xeyirxah ziyalılar kimi onlar cəmiyyətimizdə özünə yüksək mövqe tutmuş şəxsiyyətlərdir".

Professor A.Xələfov Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı olan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycan Respublikasının müstəqilliyi şəraitində xalqımızın, millətimizin, milli dövlətçiliyimizin kompleks inkişafı naminə həyata keçirdiyi böyük fəaliyyətə yüksək dəyər verərək, Prezident İlham Əliyevin fəaliyyətinin, həyata keçirdiyi işlərinin xalqımızın parlaq gələcəyinə aparan məqsədyönlü yol olduğunu vurğulayıb. Alim qeyd edirdi ki, Prezident İlham Əliyevin cəmiyyətin informasiyalaşdırılmasına yüksək qiymət verməsi, informasiya texnologiyalarının sürətli tətbiqi, respublikamızın informasiya texnologiyası istehsal edən bir ölkəyə çevrilməsi haqqındakı göstərişləri ölkəmizdə informasiya cəmiyyətinin qurulmasına və bilik cəmiyyətinə keçilməsinə böyük təkan verir. Alimin qənaətincə, Prezidentin "informasiya-kommunikasiya texnologiyaları"na həsr edilmiş elmi konfransdakı çıxışında ölkədə biliyin yüksəldilməsini cəmiyyətin inkişafının mühüm amili kimi qiymətləndirərək, "Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbi təbii ehtiyatlar deyil, məhz bilik, məhz savad, yeni texnologiyalardır - bunlar ölkəyə uğur gətirir, inkişaf, müasirlik gətirir" - deməsi onun tərəfindən elmin, biliyin, intellektin sərhədsiz imkanlarının hər bir xalqın xoşbəxtliyi və uğurlu inkişafının əsası kimi dəyərləndirilməsini əyani sübut edir. A.Xələfov Prezident İlham Əliyevin xüsusilə müasir informasiya əsrində elmin, mədəniyyətin, təhsil və tərbiyə prosesinin optimal təşkili və hərtərəfli inkişafında əvəzsiz rol oynayan kitabxana işinə, onun hərtərəfli tərəqqisinə verdiyi töhfələri böyük ümummilli əhəmiyyət kəsb edən məsələ kimi şərh etmişdi. Ölkə Prezidentinin müasir şəraitdə kitabxana işinə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirərək, bu istiqamətdə konkret əməli tədbirlər həyata keçirməsi, beləliklə, ölkəmizdə bu sahənin yeni qloballaşan dünyanın, informasiya əsrinin qarşıda qoyduğu tələblərə uyğun dinamik inkişafa apardığını vurğulayırdı.

Prezident İlham Əliyev tərəfindən xalqımızın çoxəsrlik tarixi multikultural ənənələrinin yeni ictimai-tarixi şəraitdə, dünyada baş verən qlobal dəyişikliklər, etno-mədəni, milli, irqi, dini və sair qarşıdurmalar şəraitində qlobal miqyasda dirçəldilməsini, onun vətənimizin bütün dünyada multikulturalizm beşiyinə çevrilməsi istiqamətində apardığı böyük ümummilli və beynəlxalq əhəmiyyətə malik siyasi-mədəni fəaliyyətini, eləcə də bu fəaliyyətin kitabxana-informasiya mühitinə, kitabxana-biblioqrafiya-informasiya təhsilinə müxtəlif aspektlərdən təsirinə dair A.Xələfovun qələmə aldığı məqalələr də öz kompleks mahiyyəti etibarilə əhəmiyyətli elmi-nəzəri, metodoloji və ideoloji dəyərə malikdir. Professor A.Xələfov vətənimizin sərhədlərindən kənarda da böyük ehtiram qazanmışdı. O, keçmiş SSRİ-də də kitabxanaşünaslıq elminin formalaşmasında və inkişafında öz dəst-xətti olan alimlərdəndir. Belə ki, professor Abuzər Xələfov uzun müddət Bakıda, Moskvada, Sankt-Peterburqda, Daşkənddə, Kiyevdə və digər şəhərlərdə kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinə dair müdafiə edilmiş 5 doktorluq və 20-dən çox namizədlik dissertasiyasının rəsmi opponenti olub. İştirak etdiyi çoxsaylı beynəlxalq elmi konfranslarda, simpoziumlarda maraqlı çıxışları, məntiqi mühakimələri, elmi diskussiyaları ilə hamının diqqətini cəlb edib.

Professor A.Xələfovun çoxşaxəli elmi-tədqiqat və ictimai fəaliyyəti SSRİ-nin ayrı-ayrı dövlət qurumları tərəfindən yüksək qiymətləndirilmiş və o, vaxtaşırı müxtəlif mükafatlara layiq görülmüşdü. Digər alimlərdən fərqli olaraq, o, elmi əlaqələri müasir dövrümüzdə də davam etdirmiş, Rusiya, Ukrayna, Qazaxıstan, Litva, Estoniya elmi məktəbləri ilə banisi olduğu Azərbaycan kitabxanaşünaslıq məktəbinin elmi təmaslarının uğurla inkişafına nail olmuşdu. Məhz bunun məntiqi nəticəsidir ki, A.Xələfov 2000-ci ildə Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdi. 2001-ci ildə professor A.Xələfov həmçinin bu mötəbər Akademiyanın və Rusiya Yazıçılar İttifaqının "Xeyriyyəçilik və maarifçilik" medalı ilə təltif edilmişdi.

Professor A.Xələfovun Azərbaycan elmi, təhsili və mədəniyyəti qarşısındakı müstəsna xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, ölkəmizin ən ali dövlət mükafatlarına layiq görülmüşdü. Abuzər Xələfov 2000-ci ildə xalqımızın Ümummilli Lderi Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif olunmuş, 2001-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, elm, təhsil və mədəniyyət sahəsinə inzibati idarəçiliyi həyata keçirən bütün strukturlar tərəfindən mükafatlandırılmışdı. Alimin 70, 75, 80 və 85 illik yubileyləri respublikamızda yüksək səviyyədə qeyd edilib.

2019-cu ilin noyabrında Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə Universitet əməkdaşlarının yüksək dövlət mükafatları ilə təltif edilməsi barədə Prezidentin müvafiq sərəncamı ilə şüurlu həyatının və fəaliyyətinin 70 ilini məhz bu ali təhsil ocağına, Müsəlman Şərqinin ilk Avropa tipli elm və təhsil məbədgahına sərf etmiş böyük alim Azərbaycan Respublikasının ali dövlət mükafatı - "Şərəf" ordeni ilə təltif olunub. Hesab edirik ki, bu böyük addım ölkə başçısı tərəfindən Azərbaycan kitabxanaşünaslıq elminə, ali kitabxanaçılıq-informasiya təhsilinə və kitabxana ictimaiyyəti nümayəndələrinə, bütövlükdə milli mədəniyyətimizə yüksək ümumdövlət qayğısının parlaq təzahürü kimi qiymətləndirilməlidir.

Müdrik alimin ömrünün ən şərəfli mərhələləri onun xalqına, millətinə, dövlətçiliyinə göstərdiyi xidmətlərin qayəsi ilə naxışlanır. Abuzər Xələfov ömrünün mərhələləri ülvilik, müqəddəslik, paklıq, ali hisslər, uca məqamlar, ləyaqət, sədaqət naxışlarından toxunan çələngə bənzəyir.

Professor Abuzər Xələfovun fitri istedada malik novator alim, sevimli müəllim və qayğıkeş bir insan kimi yaşadığı 89 illik mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Görkəmli alim, pedaqoq, əsl ziyalı Abuzər Alı oğlu Xələfovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin**

**Azad Qurbanov**
***Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı***
**Nigar İsmayılova *Elmi Kitabxananın direktoru***

# Görkəmli pedaqoq, müdrik şəxsiyyət

Elmi-pedaqoji aləm onu çoxdan tanıyır. Azərbaycan və xarici ölkələrin nüfuzlu elmi jur¬nallarında işıq üzü görmüş, bitib-tükənməyən el¬mi məqalələrlə, sanballı dərsliklərlə, nümunəvi müəl¬limliyi ilə, həm də özünəməxsus təmkin, dav¬¬ranış və bütövlük sayəsində qazanılmış əsl alim ləyaqəti ilə ... Bu yığcam, lakin çox mətləblərdən soraq verən qeydlərin ünvanı Bakı Dövlət Universitetinin professoru Məcid İsmixanovdur. Bütün şüurlu həyatını elmə, təhsilə həsr edən, 58 illik səmərəli elmi-pedaqoji fəaliyyəti ilə şöhrətlənən Məcid müəllim gərgin və fədakar əməyi sayəsində indiki uca məqamına yüksəlmişdir. Bu günədək onun qələmindən 300-dən çox məqalə, 12 dərslik və dərs vəsaiti, 10 tədris-metodik vəsaiti, onlarla proqram, 5 monoqrafiya süzülmüşdür.

Məcid müəllim 1968-ci ildən başlayaraq dövrü mətbuatda, elmi jurnallarda, radio və televiziyada dayanmadan pedaqogika elminin müxtəlif sahələrinə, problemlərinə həsr olunmuş geniş həcmli əsərlər yazmağa başlamışdır. Bu əsərlər tədqiqat bitkinliyi, əhatəliliyi, elmi səviyyəsi ilə böyük maraq doğurmuş, mütəxəssis-pedaqoqlar tərə¬findən yüksək dəyərləndirilmişdir. O, həm elmi fəaliyyəti, həm də müəl¬limlik səriştəliliyi ilə böyük uğurlar qazanmışdır. Onun müəl¬limlik fəaliyyətinin bəhrələri bu gün onunla çiyin-çiyinə çalışan elm adamlarının uğurları ilə ölçülür. Prof. Fərrux Rüstəmov, prof. Rüfət Hüseynzadə, dosentlər Mirələm Vəliyev, Yaqut Rzayeva, Ok¬tay Abbasov, Allahyar İmanov, Tamila Vahabova, Təranə Əliyeva və b. Məcid müəllimin pedaqoji fəaliyyətindən, əsərlərindən bəhrələnən¬lərdir. Müəllimlərindən qürurla bəhs edən bu tanınmış pedaqoqlar, ona yenə də öz müəllimləri kimi yanaşırlar. Müəllim üçün bundan gözəl ömür ola bilməz.

Zaman ötüb keçir. Bir-birini əvəz edən əbədi yaddaşa da yenidən üz tutmaq zərurətini ortaya qoyur. Keçmiş yola yenidən nəzər salmaq, uğur və qüsurları təhlil edib ümumiləşdirmək ehtiyacı pedaqoji düşüncədə hər an qarşıda durur, xüsusən bizim günlərdə - Azərbaycanın müstəqillik yolu ilə irəlilədiyi bir zamanda bu ehtiyac daha kəskin görünür: keçmiş pedaqoji irsdən yararlanmaqla ona müasir paradiqmalarla yanaşmaq Məcid müəllimin elmi üslubu üçün sə¬ciyyəvidir. Məcid İsmixanovun qələmindən çıxan "Pedaqogika (Didaktika)", "Pedaqogikanın əsasları", "Təhsilin əsasları", "Mək¬tə¬bin idarə edilməsi", "Sosial pedaqogika", "Pedaqoji etika", "Ali mək¬¬təb pedaqogikası" və b. dərslik və dərs vəsaitləri bu baxımdan ye¬¬nidən işlənilmiş, onlara yeni məzmun bəxş edilmişdir. Bu isə onu deməyə əsas verir ki, Məcid müəllim məhsuldar pedaqoqla¬rımız¬dandır.

Hər bir müəllim öz mühiti və zamanı daxilində aydın görünür: ona görə də müəllimin yaradıcılığını öz mühiti və dövründən kənarda axtarmaq olmaz. Çünki yaxşı müəllimin dünyagörüşü, maraq dairəsi, axtarışları, pedaqoji mövqeyi, yazdıqlarının məna istiqaməti onun mühiti və həyatı, düşüncəsi ilə bağlıdır. Məcid müəllim tanınmış pedaqoq, prof.Mərdan Muradxanovun rəhbərlik etdiyi, yüksək elmi-pedaqoji mühitdə formalaşmış və inkişaf etmişdir. O, mühitinə və düşüncəsinə uyğun: sakit təbiətli, az danışan, dinləməyi bacaran, xe¬yirxah, ədalətli pedaqoq-alimlərimizdəndir. Bir hadisəni xatırlatmaq yerinə düşərdi. Mən vaxtilə Məcid müəllimin işlədiyi Pedaqogika kafedrasında prof.M.Muradxanovun aspirantı idim. Mərdan müəllim Məcid müəllimin biliyinə, obyektivliyinə inanaraq onu çox halda dövlət imtahan komissiyasının tərkibinə daxil edirdi. Dövlət imta¬hanından sonra müəllimlərdən bəzilərinin ona olan qısqanclı münasi¬bətini görürdüm. Məcid müəllim bələlərinə səmimi münasibətini dəyişmir; onların bu hərəkətini təbii qəbul edirdi; yenə əvvəlki sakit və təmkinli mövqeyini saxlayırdı.



Məcid İsmixanovla indi eyni kafedrada çalışırıq. Yenə də onun genetik sakitliyini və təmkinliyini görürük. Məcid müəllim kafed-rada, demək olar ki, ən məsul və ağır bir işi – ictimai vəzifəni icra edir: elmi işlər, onların planlaşdırılması, sistemləşdirilməsi, elmi he¬sabatların tərtibi və s. O, bu çətin işin öhdəsindən uzun müddətdir ki, şərəflə və layiqincə gəlir. Proqram və dərsliklərlə kafedranın tə¬mi¬na¬tında aparıcı qüvvələrdəndir. O, bundan yorulmur və tükənmir. Çün¬ki Məcid müəllim, sözün əsl mənasında, elm və təhsil adamıdır. Dərs dediyi tələbələr Məcid müəllimi savadına, qayğıkeşliyinə, məsu¬liy¬yətliliyinə, təmkinliliyinə, humanistliyinə görə yüksək dəyər¬ləndirir və sevirlər.

Bütün bunları ümumiləşdirərək deyə bilərik ki, prof. Məcid İsmixanov Pedaqogika elminin hansı sahəsindən yazırsa-yazsın, onun tədqiq etdiyi işə münasibəti heç vaxt dəyişilməyən dəqiq, ciddi sistemli baxışının qanunauyğun nəticəsidir. Onun əsərlərinin hər biri, elmi fikir baxımından üç funksiyanın daşıyıcısıdır:

Birincisi, istənilən məqaləsi kiçik həcmli monoqrafiya təsiri bağışlayır. Fikrimizcə, həmin məqaləni əsas götürməklə qısa zaman-da müasir tələbələrə cavab verən böyük tədqiqat əsəri yaratmaq olar.

İkincisi, onun hər hansı məqaləsi mahiyyət etibarilə pedaqoji fikir tarixinin səhifələrinə öz izini sala bilir.

Üçüncüsü, yazılan məqalənin nə vaxt və nə məqsədlə ərsəyə gəlməsindən asılı olmayaraq, vahid bir dərsliyin ayrı-ayrı hissələri hesab edilə bilər. Görünür, tədqiqatçı alimin çoxillik müəllimlik fəa¬liyyəti onun araşdırmalarının pedaqoji səviyyəsinin kifayət qədər yüksəlməsinə əsaslı təsir göstərmişdir.

Əziz Məcid müəllim, 80 baharlı ömrünüzün dəyərli illərini təhsilimizin və elmimizin inkişafına həsr etmisiniz. Bundan sonrakı illərinizdə də bu vacib şərəfli işi sağlam və gümrahlıqla davam etdir¬mənizi, gözəl və nikbin bir ömür yaşamağınızı arzulayırıq. Bu bizim səbrli, təmkinli, az danışan, lakin söz danışan böyük pedaqoqumuz və müdrik şəxsiyyətimiz Məcid müəllimimizə ürəkdən qopan arzu¬la¬rımızdır.

***Ləzifə Qasımova***
***Pedaqoji elmlər doktoru, professoru***

# BDU-da tədrisin məsafədən təşkili uğurla davam etdirilir




Ölkədə koronavirusla (COVİD-19) bağlı zəruri tədbirlərin görülməsi ilə əlaqədar dərslərin müvəqqəti dayandırılması səbəbilə Bakı Dövlət Universitetində (BDU) təhsilin davamlılığı onlayn (məsafədən) formada həyata keçirilir. Tədrisin məsafədən təşkilinin məqsədi yaranmış fasilə zamanı tələbələrə tədris və metodiki dəstəyin göstərilməsi, təhsil proqramının mənimsənilməsinə şəraitin yaradılması, bu müddət ərzində onların vaxtlarının səmərəli təşkil olunmasıdır. Tədris prosesinin davamlılığını təmin etmək məqsədilə 2020-ci il 18 mart tarixində Azərbaycan Respublikasının Təhsil Nazirliyi bütün ali təhsil müəssisələrinə tədris prosesinin məsafədən təşkil edilməsi ilə bağlı "Microsoft Teams" platformasından istifadəni tövsiyə etmişdir.

BDU-da 2020-ci il 18 mart tarixindən başlayaraq onlayn tədris prosesinin təşkili, müəllim və tələbə heyətinin "Microsoft Teams" platformasına inteqrasiyası müvəffəqiyyətlə təmin edilib. Universitetin bu platformaya daxil edilən 20 mindən artıq istifadəçi hesabı, 1500-dən artıq qrup və qrup birləşməsi yaradılıb. Dərslər 2020-ci il 31 mart tarixinədək "Zoom" platforması və videodərslər vasitəsi ilə tənzimlənib. 29-31 mart tarixlərindən "Microsoft Teams" platformasında sınaq dərslər keçiriləndən sonra, 1 aprel tarixindən başlayaraq tədris aktiv dərslərlə davam etdirilir.

Hazırda BDU-da dərs prosesi sillabus, mühazirə və digər dərs materiallarının ötürülməsinə, böyük həcmli materialların yerləşdirilməsinə imkan verən "Microsoft Teams" platforması vasitəsilə uğurla həyata keçirilməkdədir. BDU-nun 15 mindən artıq aktiv istifadəçisinin yararlandığı platformada bu günə qədər 8000-ə yaxın dərs keçirilib, gündəlik dərslərin sayı orta hesabla 1000, istifadəçilərin sayı isə 10 000-dir. Platforma BDU tələbələrinin 80%-ni əhatə edir.

Tədris prosesinin təşkili, dərslərin keçirilməsinə nəzarət, texniki çətinliklərin aradan qaldırılması, müəllim və tələbələrin bu platformadan düzgün istifadə etməsinə kömək məqsədilə ali məktəbin məsafədən fəaliyyət göstərən 20 əməkdaşdan ibarət işçi qrupu formalaşdırılıb. Distant formada dərslərin əksəriyyətinin video qeydiyyatı aparılır. Bu da internet imkanları məhdud tələbələrə həmin mühazirəni yenidən izləmək imkanı verir.

# 12 aprel - Ümumdünya Aviasiya və Kosmonavtika günüdür

12 aprel dünyada Aviasiya və Kosmonavtika günü kimi qeyd edilir. 1961-ci ilin aprel ayının 12-də dünyada ilk dəfə sovet kosmonavtı Yuri Qaqarin "Vostok-1" hava gəmisində açıq kosmosa çıxıb. Kosmosun fəthi erasının əsasını qoyan bu uçuş 108 dəqiqə davam edib.

Bu uçuşdan sonra orbitdə 32 ölkədən bir neçə yüz kosmonavt və astronavt olub, kosmosun fəth olunması üzrə 250-dən çox proqram həyata keçirilib.

Dünyanın kosmik sənaye sahəsindəki nailiyyətləri Azərbaycanda bu elmin və sənayenin inkişafına böyük təkan verib. Bu sahədə yeni elm və istehsalat sahələri yaranıb, milli kadrlar məktəbi formalaşmağa başlayıb. Ölkədə fəaliyyət göstərən Milli Aerokosmik Agentlik ölkəmizin müdafiə qüdrətinin möhkəmlənməsinə, peyk kəşfiyyatı, naviqasiya rabitəsi, həmçinin ekoloji problemlərin və mülki təyinatlı məsələlərin həllinə öz töhfəsini verməkdədir.



# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BOLŞEVİKLƏR TƏRƏFİNDƏN İŞĞALI

*"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır; tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz."*

**Ümummilli Lider Heydər Əliyev**

Məlum olduğu kimi, I dünya müharibəsinin nəticəsi olaraq 300 il hakimiyyətdə olan Romanovlar sülaləsi devrildi. Xalqlar həbsxanası adlandırılan Rusiya imperiyası dağıldı. Çar Rusiyasının əsarətindən azad olan Azərbaycan xalqı öz müqəddəratını təyin etmək hüququnu əldə etdi. 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi dağıldı, Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 28-də Tiflisdə Azərbaycanın milli-demokratik qüvvələri Azərbaycanın müstəqilliyini elan edərək, 6 maddədən ibarət "İstiqlal Bəyannaməsi"ni qəbul etdilər. Beləliklə, Müsəlmam Şərqinin ilk Cümhuriyyəti olan bu dövlət qısa zaman kəsiyində bir çox uğurlar əldə etdi. Lakin Azərbaycanın müstəqil dövlət kimi fəaliyyət göstərməsi və beynəlxalq hüququn subyektinə çevrilməsi bəzi qonşu dövlətləri rahat buraxmırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərində-ki vəziyyət gərgin olaraq qalırdı. Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin 1920-ci il yanvarın əvvəllərində Azərbaycan hökumətinə göndərdiyi notada Denikin əleyhinə hərbi ittifaq bağlamağı təklif edirdi. Azərbaycan rəhbərliyi başa düşürdü ki, Sovet hökumətinin əsas məqsədi bu gənc respublikanı Denikinlə qeyri-bərabər hərbi münaqişəyə cəlb edib zəiflətmək, sonra isə onun istiqlaliyyətinə son qoymaqdan ibarətdir. Cümhuriyyətin xarici işlər naziri F.Xoyski cavab notasında yazırdı ki, Denikinlə Sovet hökuməti arasındakı mübarizə rus xalqının daxili işidir və Azərbaycan hökuməti Rusiyanın daxili işinə qarışmaq niyyətində deyil.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycanın müstəqilliyini (defakto) tanıdı. Bu hadisə Sovet Rusiyasının Azərbaycana qarşı müdaxilə planını sürətləndirdi.

Azərbaycan hökuməti Sovet Rusiyası ilə mehriban qonşuluq münasibətləri yaratmaq məqsədi ilə danışıqlara başlamağa təklif etdi. Lakin Azərbaycan hökumətinin bu mövqeyi sovet Rusiyasını təmin etmirdi. Rusiya Kommunist (b) Partiyası Mərkəzi Komitəsi Fətəli xan Xoyskinin cavabını və Azərbaycan hökumətinə münasibət məsələsini yanvarın 17-18-də keçirilən iclasında müzakirə etdi. Q.Çiçerinin məruzəsi və V.Leninin təklifi üzrə iclas Azərbaycan Cümhuriyyətinin daxili işlərinə müdaxilə ruhunda sərt qərar qəbul etdi. Qərarda deyilirdi: "Rusiya Xalq xarici işlər komissarlığına tapşırılsın ki, Azərbaycan hökuməti barəsində çox böyük təmkinlik və etimadsızlıq siyasəti yeritsin, çünki o, Denikinə qarşı birgə əməliyyat aparmaq tək-

» Ardı: səh. 7

# Şahidlərsiz keçirilən məhkəmədə ona ölüm hökmü kəsilib

REKTORLARIMIZ...



BDU-nun dördüncü və ilk azərbaycanlı rektoru Tağı Abbas oğlu Şahbazi (Simürğ) oldu. "Azərbaycan ədəbiyyatının 1920-1930-cu illər mərhələsinin təşəkkülündə yaxından iştirak edən yazıçısı", Azərbaycanda "sovet dövlətinin ən fəal qurucusu" və qurbanı olan "Simürğ" sovetlərin şərinin burulğanına düşdü...

Tağı 1892-ci ildə Bakıda anadan olub. 1900-cü ildə İçərişəhərdə "Üsuli-ətiq" dini məktəbdə ilk təhsil alan Tağı 1902-ci ildən "rus-tatar" məktəbində oxumağa başlayıb. Təhsilə həvəsi olan Tağı 1905-ci ildə "Bakı şəhəri birinci realnı məktəbinə daxil olub". 1905-1912-ci illərdə bu məktəbdə təhsil alarkən görkəmli yazar Abdulla Şaiq və Həbib bəy Mahmudbəyovla yaxınlığı onu ədəbiyyata, bədii yaradıcılığa meyllendirir. Onların məsləhəti ilə "Azərbaycan və dünya klassiklərini oxumağa başlayan Tağının dünya görüşü, həyata baxış tərzi dəyişir. O, yaradıcılığa hələ tələbə ikən başlayır və mətbuat aləminə Oktay Mirbodan iqtibas etdiyi (1908) "Fəhlələrin uşaqları" adlı hekayəsi ilə gəlir". Bu gəliş uğurlu olur. Tağı "İqbal", "Açıq söz" qəzetlərində çap olunmağa başlayır. Bədii yaradıcılıqla yanaşı ali təhsilə də sahib olur. 1913-1918-ci illərdə Xarkov Universitetində (əvvəl riyaziyyat və təbiət elmləri, sonra isə tibb fakültəsində) ali təhsil almaqla yanaşı tərcümə ilə də yaxından məşğul olur. Tələbəlik illəri Tağını siyasi hadisələrə də sövq edir. O, "1915-ci ildə Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyasının tələbə fraksiyasına daxil olur".

1917-ci ildə baş verən fevral burjua inqilabı bir çox tələbələr kimi onun da təhsilini yarımçıq qoyur. Tağı Bakıya gəlir və həm "Hümmət" təşkilatında çalışır, həm də "Hümmət" qəzetinin nəşrində yaxından iştirak edir". 1918-ci ildə yenidən "Xarkova qayıdır. Təhsilini davam etdirməklə yanaşı "Cənub Tausu" qəzetinə redaktorluq edir.

1920-ci ildə Bakıda baş verən aprel işğalından az sonra Mərkəz Tağı Şahbazinin Azərbaycana qayıtmasını "məsləhət bilir". O, burada Mərkəzin "dəsti-xətti"ni həm mətbuat səhifələrində, həm də icra etdiyi vəzifələrdə həyata keçirməli idi. Odur ki, 1922-ci ildə onu Azərbaycan Xalq Maarif Komissarının müavini vəzifəsinə təyin edirlər. O, 1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi, "Maarif və mədəniyyət" jurnalının redaktoru kimi fəaliyyətini davam etdirir. 1926-ci ildə T.Şahbaziyə daha məsul bir vəzifə tapşırılır – BDU-ya rəhbərlik etmək.

Hökumətin niyyəti "güclü" Sovet dövlətinin "əzəmət"ini ölkənin ən ali təhsil ocağında təbliğ etməklə onu "siyasi hakimiyyət uğrunda mübarizədə alətə çevirmək idi. Amma xoşbəxtlikdən Tağı Şahbazi BDU-ya rəhbərlik etdiyi illərdə (1926-1929) "Azərbaycanın milli mənafeyi uğrunda mübarizə aparan qüvvələrin səyi nəticəsində universitet özünün əsl simasını qoruyub saxlaya bilmişdir". Bu zaman universitetdə Tağı Şahbazi ilə yanaşı Böyükağa Talıblı, Əbdürrəhim bəy Haqverdiyev, Həmid Şahtaxtinski, Mirzə İbrahimov, Rəşid Əfəndiyev kimi Azərbaycanın tanınmış, savadlı, millətsevər, vətənpərvər ziyalıları da çalışırdılar. Onlar universitetin türkləşdirilməsi siyasətini "çox ehtiyatla, digər millətlərdən olanları qorxutmadan həyata keçirdilər" ki, nəticədə, "1927-1930-cu illərdə universitet tələbələri arasında azərbaycanlıların sayı artır, ana dilində müxtəlif elm sahələrinə dair tədqiqat əsərləri, dərsliklər hazırlandı". Əksər tədqiqatçıların fikrincə bu məsələyə "güclü təsir göstərən amillərdən biri 1926-cı ildə BDU-ya ilk azərbaycanlı rektorun – Tağı Şahbazinin təyin olunması oldu".

Məsələnin çox ciddi şəkil alması hökuməti də narahat edir. Xalq Maarif Komissarlığı 1929-cu ilin 12 mayında təcili olaraq yığıncaq təşkil edir və Xalq Maarif Komissarı Mustafa Quliyev T.Şahbazini "millətçilikdə" günahlandıraraq qəzəblə söyləyir ki, "biz türk milləti ilə rus milləti arasında fərq qoysaq, onda bu zəmində çoxlu anlaşılmazlıq olacaqdır". Yığıncaqdan bir neçə gün sonra Tağı Şahbazi BDU-nun rəhbərliyindən uzaqlaşdırıldı. "1929-ci ilin 22 iyununda Azərbaycan Həmkarlar İttifaqı Şurasının mədəniyyət şöbəsinin müdiri Müseyib Şahbazov BDU-ya rektor seçildi". (O, BDU-ya bir aya yaxın rəhbərlik edib).

Hökumət T.Şahbazini "özününkülləşdirmək" üçün 1930-cu ildə onu daha böyük vəzifəyə – "Azərbaycan Xalq Səhiyyə Komissarının müavini vəzifəsinə təyin edir" və o, həbs edilənə – "1937-ci ilin 11 iyuluna" kimi bu vəzifəni icra edir. 1934-cü ildə Azərbaycan Yazıçılar Birliyinə üzv olan Tağı Şahbazi daha çox bədii yaradıcılıq ilə məşğul olur. Lakin, T.Şahbazi artıq "qara siyahıya" düşmüşdür. Hər addımı belə Xüsusi şöbənin "əməkdaşları" (əslində işverənləri) tərəfindən nəzarətdə idi. Onu ilk olaraq müsavatçı Əbdül Bağının evində qonaq olduğu üçün günahlandırdılar. Bu haqda görkəmli akademik Ziya Bünyadov yazırdı: "...Tağı Şahbazi keçmiş milli-təmayülçü, hazırda Müsavatın 4-cü gizli Mərkəzi Komitəsinin işi üzrə həbs edilmiş Əbdül Bağı Məmmədzadənin evində Türkiyə konsulu M.Şövkət bəyin şərəfinə təşkil olunmuş qonaqlıqda iştirak etmiş və guya onlar qonaqlıqda ÜİK (b) P-nın milli siyasətini əksinqilab böhtançı ruhda tənqid etmişlər". Akademik daha sonra bildirir ki, əslində nə Əbdül Bağının evində belə qonaqlıq olmuş, nə də Tağı Şahbazi orada iştirak etmişdir. Qulluğunda durduğu hökumət onun məhvi üçün belə "sübut, dəlil axtarışında idi". Bu "sübutu, dəlili" Azərbaycan SSR XDİK İdarə rəisi Sumbatov "tapdı". Onu 1937-ci il martın 4-də gizli milli-təmayülçülər qrupuna məxsusluğuna, əksinqilabi millətçi çıxışlarına görə" partiya sıralarından xaric edərək "1937-ci ilin 11-iyulunda Azərbaycan SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən həbs edirlər".

Dəhşətli işgəncələrdən sonra "1938-ci il yanvarın 2-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası qapalı şəraitdə, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz keçən məhkəmə iclasında Tağı Şahbazi əmlakı müsadirə olunmaqla ən ağır cəzaya – güllələnməyə məhkum edilmiş və hökm dərhal yerinə yetirilmişdir".

Deməli, bu dünyada yaxşılıq da, pislik də unudulmur və Tanrı tərfindən qiymətləndirilir. Gəlin Tanrı qəzəbindən uzaq olmaq üçün şər işlərdən də uzaq olaq!

**Qərənfil Dünyaminqızı**
***Milli mətbuat tarixi kafedrası, dosent.***

# Sağ olun, müəllimlərimiz!

Məlum olduğu kimi, Çindən başlayıb dünyaya yayılan yeni növ koronavirus infeksiyası (COVID-19) ilə bağlı xəbərlər hələ də əsas gündəm mövzusudur. Azərbaycanda da koronavirusla bağlı məsələ ilk gündən diqqət mərkəzindədir. Bu təhlükənin gücləndiyi bir şəraitdə dünya ölkələrinin bir çoxunda artıq fövqəladə vəziyyət elan olunub, ciddi məhdudlaşdırıcı tədbirlər həyata keçirilir. Xəstəliyin ölkəmizdə yayılmaması üçün bütün lazımi tədbirlər görülüb, sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanır, insanlara məcbur olmadıqca evdən çıxmamaq tövsiyə olunur. Dərslərin müvəqqəti dayandırılması səbəbilə universitetimizdə təhsilin davamlılığı onlayn formada təşkil olunub.

Tədrisin məsafədən təşkilinin məqsədi yaranmış fasilə zamanı tələbələrə tədris və metodiki dəstəyin göstərilməsi, təhsil proqramının mənimsənilməsinə şəraitin yaradılması, bu müddət ərzində onların vaxtlarının səmərəli təşkil olunmasıdır. Tədris prosesinin davamlılığını təmin etmək məqsədilə 2020-ci il 18 mart tarixində Azərbaycan Respublikasının Təhsil Nazirliyi bütün ali təhsil müəssisələrinə tədris prosesinin məsafədən təşkil edilməsi ilə bağlı "Microsoft Teams" platformasından istifadəni tövsiyə etmişdir.



Karantin dövründə biz tələbələrin əvvəlkindən daha passiv bir həyat tərzinə keçdiyimizi nəzərə alsaq, bu dönəmdə onlayn dərslərin həm bizim fəallığımız, həm də tədris prosesinin davam etdirilməsi üçün nə qədər vacib olduğunu görürük. Onlayn dərslər başladıqdan sonra karantin rejimi həm əvvəlkindən daha rəngli, həm də daha produktivdir. Bu tətbiq vasitəsilə biz günümüz boş keçmir, vaxtımızı bizim üçün vacib olan təhsilə sərf edirik. Beləliklə psixoloji cəhətdən sağlam qalırıq və əvvəlki məşğuliyyətlərimizdən yadırğamırıq. Onlayn dərslərin aparılması eyni zamanda bizim üçün müasir texnologiyaların istifadəsi təcrübələrini mənimsəmək baxımından da əhəmiyyətlidir.

Sosial izolyasiya dövründə doğma Universitetimizin həyatımızda nə qədər önəm kəsb etdiyini bir daha anlamış olduq. Bakı Dövlət Universiteti bizim ikinci evimiz, təhsil ocağımız və xoş xatirələrimizin yaşadığı bir məkandır.

Bu günə qədər iştirak etdiyimiz bütün virtual dərslər çox səmərəli və maraqlı keçir. Onlayn dərslər doğma universitetimizə olan həsrətimizi soyutmasa da, hər halda evdə qalsaq da, universitetimizlə birgə olma duyğusu bizdə olduqca müsbət əhval-ruhiyyə yaradır. Bunda müəllimlərimizin rolunu və tələbə yoldaşlarımın diqqətini xüsusi qeyd etməliyəm. Onlayn dərslərin tətbiqinin qısa bir zamanda yüksək şəkildə təşkil etdiklərinə, biz tələbələri virtual da olsa, bir yerə, doğma universitetimizin dərslərində topladıqlarına görə Universitetin rəhbərliyinə minnətdarlığımı bildirirəm və bu dərslərdə birlikdə iştirak edən müəllimlərimizə və tələbə yoldaşlarıma uğurlar arzulayıram!

Bir tələbə kimi sosial özünütəcrid rejiminin əhalinin sağlamlığının qorunması üçün nə dərəcədə vacib olduğunu dərk edərək, bu mövzuda alınan bütün tədbirlərlə bağlı hamını diqqətli olmağa, tövsiyə olunan qaydalara riayət çağırıram. Mövcud vəziyyətdə dövlət orqanlarının və ictimaiyyətin bir-birinə qarşılıqlı dəstək olması problemin aradan qaldırılmasına kömək edəcək. Hər bir vətəndaş məsuliyyətini dərk etməli və üzərinə düşən vəzifələri yerinə yetirməklə virusla mübarizəyə öz töhfəsini verməlidir.

**Hacıbaba Mustafayev**

***Jurnalistika fakültəsi, III kurs tələbəsi***

» Əvvəli: səh. 5

lifimizi rədd etmişdir və Xəzər dənizində bizə qarşı çıxan İngiltərə hərbi qüvvələrinə xidmət göstərir. Rusiya Xalq xarici işlər komissarlığı Azərbaycan hökumətinin bu cür davranışına qarşı qəti protest etməlidir."

1920-ci il yanvarın 19-da Paris Sülh Konfransının Ali Şurası Müttəfiqlərin ordu göndərmədən, yalnız silah və sursat vasitəsi ilə Azərbaycan və Gürcüstanı müdafiə edəcəyi barədə qərarını elan etməsi bolşevik təcavüzü üçün əlverişli şərait yaratdı. Hələ 1919-cu ilin axırlarında ingilis nümayəndəsi O.Qredi ilə danışıqlar aparan Rusiya Xalq xarici işlər komissarlığının Kopenhagendəki müvəkkili M. Litvinov yanvar ayında Q.Çiçerinə göndərdiyi teleqramda bildirirdi ki, İngiltərə hökuməti Qafqaza güclü ordu göndərmək barədə şaiyələri təkzib edir.

Çiçerin yanvarın 23-də ikinci notasında Azərbaycanın müstəqilliyinə münasibətini bildirməkdən yan keçir və Azərbaycan hökumətini Denikinə qarşı mübarizə aparmaqdan imtina etməkdə günahlandırırdı. Bu nota hədələyəci məzmuna malik idi. F.Xoyski isə notasında Azərbaycanın istiqlaliyyətinin Sovet Rusiyası tərəfindən qeyd-şərtsiz tanınmasını təkid edirdi. Çiçerinin martın 7-də göndərdiyi növbəti nota baş aldatmaqdan və vaxt uzatmaqdan başqa bir şey deyildi. Getdikcə aydın olurdu ki, Rusiyanın bu hərəkətləri Azərbaycana qarşı hazırlanan hərbi müdaxiləni pərdələmək və Azərbaycan hökumətinin sayıqlığını azaltmaq məqsədi güdür.

Hələ 1918-ci ilin dekabrında bolşeviklər Bakıda ümumi siyasi tətil keçirməyə nail oldular. Tətildə 25-dən çox müəssisənin 12 minə qədər fəhləsi iştirak edirdi. 1919-cu ilin mayında bolşeviklər Bakıda ikinci dəfə tətil keçirməyə cəhd göstərdilər. Azərbaycan bolşeviklərinin sosial bazasını əsasən qeyri-müsəlman əhalisi təşkil edirdi. 1919-cu il aprelin 25-də Azərbaycanın cənub bölgəsində bolşeviklər tərəfindən qızışdırılan rus əhalisinin milli hökumətə qarşı qiyamı başlandı. Qiyamçılar bölgəni "Muğan Sovet Respublikası" elan etdilər. Avqustun əvvəlində qiyam hökumət qüvvələri tərəfindən yatırıldı.

Hökumətin torpaq islahatını yubatmasından bolşeviklər məharətlə istifadə etdilər. 1919-cu ilin əvvəllərində bir sıra qəzalarda bolşeviklərin rəhbərliyi ilə kəndli çıxışları başlandı. Bunlardan ən güclüsü Gəncədə baş verdi. Bu çıxış 1919-cu ilin sentyabrında yatırıldı.

Böhranı kəskinləşdirən amillərdən biri də Azərbaycanda, xüsusən, Bakıda olan Türkiyə kommunistləri və ittihadçılarının xalq arasında geniş nüfuzlarından istifadə edərək, rus ordusunun gələcək yürüşü xeyrinə təbliğat aparmaları idi. Türklər iddia edirdilər ki, güya qırmızı ordunun Türkiyədə Kamal hərəkatına köməyə tələsməsinə baxmayaraq, Azərbaycan hökuməti rus ordusunu öz ərazisindən buraxmaq istəmir. Buna görə də türk kommunistləri yerli və xarici bolşeviklərlə birlikdə milli hökumətə qarşı mübarizə aparmağa məcburdurlar .

1920-ci il fevralın 11-12-də Bakıda Azərbaycan Kommunist (bolşeviklər) Partiyası təsis edildi. Bolşeviklər partiyasının faktiki rəhbəri Azərbaycan xalqının qatı düşməni A.Mikoyan idi. Partiya milli hökuməti yıxmaq, Sovet Azərbaycanı qurmaq üçün silahlı üsyan xəttini irəli sürdü.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə etdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Primov və Zaxaryan Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək planlarını Sovet Rusiyasına təklif etdilər. Qarabağda və Gəncəbasarda erməni əhalisinin qiyamı və Azərbaycana qarşı Ermənistanın müharibəsi bu planın tərkib hissəsi idi. 1920-ci ilin Novruz bayramı günlərində Azərbaycan ordusunun, demək olar ki, hamısı Qarabağ istiqamətində erməni qiyamçılarına qarşı vuruşduğu üçün ölkənin şimal sərhədləri müdafiəsiz qaldı. Daşnak quldur dəstələrinin Xankəndi qarnizonuna hücumu ilə başlanan Qarabağ qiyamını yatırtmaq üçün milli ordu hissələri təcili Bakıdan və Dağıstan sərhədlərindən Qarabağın dağlıq hissələrinə gətirilməyə başladı.

Yetmiş iki minlik XI rus ordusu Samur çayı sahilindən Azərbaycan sərhədlərinə yaxınlaşdı. Azərbaycan hökumətinin Qərbdən gözlədiyi yardım reallaşmadı.

Sovet Rusiyasına münasibət məsələsində də Azərbaycan hökumətində yekdillik yox idi: xarici işlər naziri Fətəli xan Xoyski Rusiyaya münasibətdə sərt xəttin, daxili işlər naziri Məmməd Həsən Hacınski isə Azərbaycan bolşevikləri ilə danışığa girib onlara güzəştə getməyin tərəfdarı idi. M.Hacınskiyə görə Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlalını qorumaq mümkün idi.

1920-ci ilin martında hökumətin keçirdiyi konfransda M.Hacınskinin tərəfdarları qalib gəldilər, N.Yusifbəyli baş nazir vəzifəsindən istefa verdi. Yeni hökumətin təşkili M.H. Hacınskiyə tapşırıldı. Lakin M.H.Hacınski bu hökumətin təşkilinə tələsmirdi, az sonra bolşeviklər partiyasına daxil oldu. Yeni hökumətin təşkilinin yubadılması onsuz da gərgin olan vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Parlamentdə müxtəlif partiyalar arasında gedən mübarizə son həddə çatdı. Mövcud hakimiyyətə qarşı daim müxalifətdə olan və hökuməti devirməyə çalışan ittihadçılar Rusiya ilə hərbi ittifaqa girməyi tələb edirdilər. Azərbaycan bolşevikləri isə guya ölkədə qayda-qanun yaratmaq naminə hərbi yardım üçün Rusiyaya müraciət etməyə və XI rus ordusunu Azərbaycana dəvət etməyə çağırırdılar.

Sovet Rusiyasının müstəqil Azərbaycan dövlətinə münasibəti siyasi mülahizələrlə yanaşı daha çox iqtisadi amillərlə bağlı idi. 1920-ci ilin yazında Rusiyada vətəndaş müharibəsi, əsasən başa çatmış, dağılmış və bərbad vəziyyətə düşmüş təsərrüfatı bərpa etmək kimi çətin bir vəzifə qarşıya çıxmışdır. Təsərrüfatın bərpa edilməsi üçün neft və neft məhsullarına çox böyük ehtiyac var idi. Əslində, 1920-ci ilin yanvarında başlanan diplomatik qarşıdurmaların arxasında Bakı neftinə sahib olmaq iddiaları dururdu. Rusiya hökumətinin başçısı V.Leninin martın 17-də Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasının üzvləri Smilqa və Orconikidzeyə göndərdiyi teleqramda Bakının işğal edilməsi məsələsi açıq-aydın göstərilmişdir. V.Lenin yazırdı: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyətinin hazırlandığını tamamilə yəqin etmək lazımdır… Qüvvələr yeridilməsi haqqında baş komandanla şərtləşin".



1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI rus ordusu Azərbaycan sərhədlərinə yaxınlaşdı. Aprelin 15-də F.Xoyski Çiçerinə göndərdiyi notada rus ordusunun Azərbaycan sərhəddində toplanmasının səbəbləri və məqsədi barədə məlumat verilməsini tələb etdi. Fətəli xan Xoyski Q.Çiçerinə göndərdiyi teleqramda yazırdı ki, Dağıstan denikinçilərdən təmizləndikdən sonra Azərbaycan xalqı bu ümiddə idi ki, şimaldan təhlükə qurtarmışdır; o, qardaş dağlı xalqlarına öz müqəddəratını təyin etmək hüququna təminat vermiş Rusiya ilə dostcasına yaşayacaqdır. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri yaxınlığındakı Dərbənd rayonunda və Dağıstan hüdudlarında sovet hökumətinin fikrindən xəbərsizdir, ona görə xahiş edir ki, yuxarıda göstərilən rayonlarda ordunun toplanmasının səbəbləri haqqında məlumat verilsin. Lakin Çiçerin bu notaya əhəmiyyət vermədi.

Aprelin 18-də Quba qəza rəisi Daxili İşlər Nazirliyinə göndərdiyi şifrəli teleqramda Azərbaycan sərhədlərinə toplanmış bolşevik qoşun birləşmələrinin hərbi hazırlıq planları haqqında məlumat verdi.

Aprelin 21-də Qafqaz cəbhəsi komandanlığı XI ordu rəhbərliyinə və Volqa-Xəzər donanmasına göndərdiyi 490 nömrəli direktivdə göstərirdi ki, Azərbaycan hökumətinin əsas ordu hissələri öz dövlətinin qərb cəbhəsində məşğuldur. Ona görə XI orduya və Volqa-Xəzər donanmasına Tuxaçevski, Orconikidze və Zaxarovun imzası ilə göndərilən direktivdə əmr edilirdi ki, aprelin 27-də Azərbaycan sərhəddini keçib, 5 gün ərzində Yalama-Bakı əməliyyatını yerinə yetirsinlər. Aprelin 23-də bu direktivdə dəyişiklik edildi və sərəncam verildi ki, XI ordunun son vəzifəsi təkcə Bakı quberniyasını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir.

Həmin günlərdə AK(b) P-nin nümayəndələrindən ibarət bir heyət Petrovsk şəhərinə gedərək XI rus ordusunun Azərbaycan sərhədlərini keçməsi məsələsini müzakirə etdilər. A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Qabaqcadan razılaşdırılmış plana görə rus ordusu Bakıda bolşevik qiyamının başlanmasından 1-2 gün sonra Azərbaycana soxulmalı idi. Bununla da dünya ictimaiyyətində belə bir rəy yaradılacaqdı ki, Azərbaycan hökuməti xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olmuşdur. Lakin Bakıda qiyam başlanmamış - aprelin 26-dan 27-nə keçən gecə XI ordu hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar.

Bakıdakı parlament və digər mühüm dövlət orqanlarını qoruyan "Yardım Alayı" türkiyəli komandirlərin təhriki ilə bolşeviklərin tərəfinə keçdi. Hərbi gəmilərin topları dənizdən parlament binasına tuşlandı.

Aprelin 27-də saat 1-ə 5 dəqiqə işləmiş Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl A.Mikoyan, Q.Cəbiyev və Q.Musabəyovu gətirən "III Beynəlmiləl" zirehli qatarı Samur körpusundən keçdi və yol boyu azsaylı və pərakəndə ordu hissələrinin müqavimətini qırmaqla Bakıya doğru hərəkət etdi. İki saatlıq qanlı vuruşmadan sonra zirehli qatar Yalama stansiyasını ələ keçirdi. Stansiyanı Quba alayının 2 bölüyü, 200 nəfərdən ibarət jandarm dəstəsi qoruyurdu.

XI ordu hissələrinin Biləcəri stansiyasında dayandığına arxalanaraq aprelin 27-də gündüz saat 16-da Azərbaycan bolşevikləri RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Fəhlə Konfransı adından parlamentə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdilər.

Ultimatumla bağlı parlament müzakirələri başladı. Müsavat fraksiyası adından onun sədri M.Ə.Rəsulzadə çıxış edərək dedi: "Bizə kobud ultimatum verilmişdir. Bizim xilaskarımız hörmət etdiyimiz Türkiyədir. Biz öz müstəqilliyimizin tapdalanmaması şərti ilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiyə edirik. Lakin, cənablar, bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geymiş düşmənə vermək deməkdir! Biz buraya millətin iradəsi və arzusu ilə gəlmişik və bizi buradan yalnız güc və süngü ilə çıxarmaq olar. "

Azərbaycan parlamentinin hakimiyyətin təhvil verilməsinə həsr olunmuş sonuncu iclası gecə saat 20.45-də başa çatdı. Parlament aşağıdakı şərtlərlə hakimiyyətin Azərbaycan kommunistlərinə verilməsi barədə qərar qəbul etdi:

1. Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Anadolunun köməyinə gedəcək;
2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;
3. Azərbaycan ordusu olduğu kimi saxlanacaq;
4. Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət azadlığı təmin olunacaq;
5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;
6. Azad şəraitdə toplaşacaq Azərbaycan Şuraları hakimiyyətin idarəçilik formalarını təyin edəcək.

Azərbaycan hökuməti aprelin 27-də respublikanın bolşevik Rusiyası tərəfindən təcavüzə məruz qaldığı, sərhədlərinin pozulduğu barədə müttəfiqlərin Tiflisdəki nümayəndələri qraf de Martelə, polkovnik Qabbaya və Lyükkə təcili məlumat göndərdi. Azərbaycan hökuməti müttəfiqlərin nümayədələrindən xahiş edirdi ki, bu çətin günlərdə Azərbaycana hücum etməmək üçün Ermənistan hökumətinə təsir göstərsinlər, çünki bolşevik təcavüz aktı ilə əlaqədar Hökumət öz qoşunlarını Qarabağ və Ermənistanla sərhəd olan rayonlardan çıxarmağa məcbur olmuşdur.

Aprelin 27-dən 28-ə keçən gecə parlament hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verdi. Komitənin tərkibi onun qiyabi seçilmiş sədri N.Nərimanov, A.Alimov, D.Bünyadzadə, M.Hüseynov, Ə.Qarayev, Q.Musabəyov və H.Sultanovdan ibarət idi.

Aprelin 28-də San Remo (İtaliya) konfransında iştirak etmiş Azərbaycan nümayəndələri bu xəbəri alan kimi müttəfiq dövlətlərin Ali Şurasına, İtaliya hökumətinə və xarici dövlətlərin Romada olan səfirliklərinə suveren Azərbaycan dövlətinin sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada deyilirdi: "Azərbaycan nümayəndələri ümid edirlər ki, sülh konfransı müstəqilliyimizin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir."

Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsi ilə bağlı dəfələrlə Millətlər Cəmiyyətinə, dünya siyasətini müəyyən edən dövlətlərə notalar təqdim olundu, müraciətlər edildi. Lakin Antanta dövlətləri Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı aprel işğalı ilə sona çatdı.

Aprelin 29-da Azərbaycan İnqilab Komitəsi hərbi yardım göstərmək xahişi ilə Sovet Rusiyasına müraciət etdi. Halbuki, XI rus ordusu aprelin 27-də Azərbaycanın hüdudları daxilində idi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi.

1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Hakimiyyəti təhvil alan bolşeviklər heç bir vədinə əməl etmədilər. Bakıda talan həftəsi başladı, qırmızı ordu Azərbaycanın şəhər və kəndlərini bir-birinin ardınca işğal etməyə başladı. Mayın 1-də Volqa-Xəzər hərbi donanmasının gəmiləri Bakı limanına daxil oldular. Mayın 3-də və 4-də Lənkəran və Astaraya hərbi dəniz desantı çıxarıldı. Mayın ortalarında XI ordu Azərbaycanın bütün ərazisini nəzarət altına aldı.

1920-ci aprelin sonu-mayın ortalarında Azərbaycanda Cümhuriyyət dövründə qazanılan bütün uğurlara son qoyuldu. 70 illik sovet dönəminin ilk günlərində dövlət bayrağından tutmuş dövlət himninə qədər hər şeyə qadağalar qoyuldu. 30-cu illərdə milli düşüncəli ziyalılar repressiyaya məruz qaldılar. Min illər boyu ibadət etdiyi dini qəyərlər qadağan edildi, məscidlər dağıdıldı. Nəhayət, 1991-ci ildə SSRİ adlanan nəhəng imperiya süqut etdi. Azərbaycan dövlət müstəqilliyini bərpa edərək, özünü Cümhuriyyətin siyasi varisi elan etdi.

Azərbaycan Respublikası hazırda dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının bərabər hüquqlu üzvüdür və sülhsevər siyasəti ilə dünya dövlətləri arasında böyük nüfuz qazanmışdır.

**Anar İsgəndərov,**
**Milli Məclisin deputatı,**
**tarix elmləri doktoru, professor,**

**Bəxtiyar Nəbiyev, dosent**

# İmtahan

## Və ya tarixin insanlığa keçdiyi ibrət dərsi



İrqindən, kökündən-soyundan, sosial vəziyyətindən, maddi imkanlarından asılı olmayaraq indi bütün bəşəriyyət imtahan verir. Yer kürəsində koronavirus pandemiyasının yayılmasının yaratdığı təşviş bütün ölkələrin, eləcə də hər bir insanın gündəlik həyatından keçir. İndi həm hər bir dövlətin, həm də yer üzündə yaşayan hər bir fərdin, hər bir vətəndaşın qarşısında duran ən mühüm vəzifə bu imtahandan sağ-salamat çıxmaqdır. Bütün imtahanlar kimi bu da həyəcanvericidir. Ancaq son deyil, həyat özünün təbii axarı ilə davam edir.

Əslində, koronavirusun yayılmasının bu qədər ciddiyə alınmasının kökündə tarixin insanlığa keçdiyi sərt ibrət dərsləri durur. Bəla ötənə qədər təcrid olunmaq, özünün və başqalarının həyatına təhlükə yaratmamaq tələb olunur. Bunun üçün dövlət zəruri hesab olunan tədbirləri görür. Bu tədbirlərdən biri də təhsil prosesini əhatə edir.

İndi dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da təhsil ocaqlarının işinə fasilə verilib. Burada əsas məqsəd insanları təcrid etməklə xəstəliyin yayılması risklərini azaltmaqdır. Ona görə də bütün inzibati tələblər müzakirə olunmadan sözsüz yerinə yetirilməlidir...

İndi bizi ilk növbədə itkilərimizi necə azaltmaq sualı düşündürməlidir. Yaranmış şəraitdən ən az itki ilə çıxmağın düzgün yolu isə hər bir vətəndaşın öz məsuliyyətini dərk etməsindən keçir. Biz həm öz həyat tərzimizi təcridolunma şəraitinə uyğunlaşdırmalı, həm də gələcəyimizin üfüqlərinə baxmağı bacarmalıyıq.

Gənclərimiz, xüsusən də tələbələr bu yeni və gözlənilməz şəraitə növbədənkənar “tətil” kimi yanaşmamalıdırlar. Yaranmış şəraiti, evdə qalmağı fürsətə çevirmək üçün yollar axtara bilərik və bu yolları tapmaq, onlardan faydalanmaq mümkündür.

İndi yeni bir təhsil forması - onlayn dərslərlə də tanışlığımız yaranır, bu sahədə ilk təcrübələrimizi aparırıq. İlk addımlarda həm texniki, həm də psixoloji baxımdan müəyyən mürəkkəbliklər müşahidə olunsa da, bu fürsət layiqincə qiymətləndirilmədir. Onlayn dərslər, hər şeydən öncə, müəllim-tələbə və tələbə-tələbə təmaslarının arasıkəsilməzliyinə şərait yaradır. Arzu edərdim ki, onlayn dərslərdə tələbələrimizin təşəbbüskarlığı daha da güclənsin. Onlar özlərini maraqlandıran sualları verməkdən çəkinməsinlər. Oxuduqları mətnləri müzakirə etməyə çalışsınlar. Onlayn dərslərdə interaktivlik artdıqca müəllim-tələbə təmaslarının məhsuldarlığı da artacaq.

Ədəbiyyat tarixi fənnini tədris edərkən tələbələrimə əsas tövsiyəm bu olur ki, bədii əsərləri oxusunlar, özlərində mətn üzərində təhlil aparmaq qabiliyyəti formalaşdırmağa çalışsınlar. Yəni istənilən yazıçını onun haqqında yazılanlara və danışılanlara görə deyil, həmin yazıçının özünün yazdıqlarına görə tanımaq lazımdır. Ədəbiyyat tarixinə, ədəbiyyatın ayrı-ayrı hadisələrinə, ayrı-ayrı əsərlərə münasibət zaman keçdikcə, elm inkişaf etdikcə dəyişir. Dəyişməyən isə yazıçıdan qalan mətnlər, bədii əsərlərdir.

Bu baxımdan, koronavirus “tətilini” mütaliə etmək üçün fürsətə çevirən tələbələrimizin bu sınaqdan daha uğurla çıxacaqlarına əminəm...

***Məti Osmanoğlu,***
***Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti***

# Bəşəriyyətin Koronavirus (COVİD-19) düşməni

Qədimdə insanlar ruhların və tanrıların qəzəbinə layiqlilərin xəstəliklərə və ölümə məhkum olunduqlarına inanırdılar, bu da epidemiyalar zamanı onların fəaliyyətini, bir-birinə yardımı məhdudlaşdırırdı. İnsanlığa sığmayan, elmi əsası olmayan bu cür qavrayış çox vaxt milyonlarla insanların məhv olmasına gətirib çıxarırdı.

Bizim eramızda epidemyaların tarixinə nəzər salsaq görərik ki, çox sayda insanın qırılmasının əsas səbəbi hər şeydən əvvəl tibb elminin inkişaf etməməsi, insanların fəaliyyətsizliyi, mübarizə üsulları haqqında təsəvvürlərin olmaması və viruslar haqqında elmi əsaslandırılmış məlumatların qıtlığı ilə əlaqədardır.

Müasir hesablama metodları ilə virusologiya elminin gəldiyi nəticəyə görə planetimizdə 1031 sayda müxtəlif viruslar var. Bu virusların 70% okeanlardadır. Bütün dünya üzrə baş verən pandemiyalarda insan ölümünə nəzər salsaq görərik ki, 165-180 -ci illərdə Antonine Vəbası (Çöp və ya qızılca) zamanı 5 milyon, 541-542-ci illərdə Yustiniana Vəbası (Yersinia pestis bakteriası) zamanı 30-50 milyon, 735-737-ci illərdə Yapon çiçək epidemiyası (Variola virusu) zamanı 1 milyon, 1347-1351-ci illərdə Yersinia pestis bakteriası ilə (qara ölüm) epidemiya zamanı 200 milyon, 1520-ci ildə çiçək epidemiyası (nəhəng Variola virusu) zamanı 56 milyon, İtalyan vəbası ilə (Yersinia pestis bakteriyaları) 1629-1631-ci illərdə 1 milyon, 1629-1631-ci illərdə İtalyan vəbası (Yersinia pestis bakteriyaları) zamanı 1 milyon, 1665-ci ildə Asiya qripi zamanı 1,1 milyon, 1885-ci ildə Çin və Hindistanda ildə Üçüncü vəba (Yersinia pestis bakteriyaları) zamanı 12milyon, 1918-1919-cu illərdə İspan qripi H1N1 virusu ( Donuz qripi) zamanı 40-50 milyon, 1957-1958-ci illərdə Asiya qripi H2N2 virusu (quş qripi) zamanı 1,1 milyon, 1968-1970-ci illərdə Hong Kong qripi H3N2 virusu zamanı 1 milyon, 2009-2010-ci illərdə Donuz qripi- H1N1 virusu 200.000 insanın ölümünə səbəb olub.

İndi üzləşdiyimiz və 2019-cu ilin dekabrından 09 Aprel 2020-ci il tarixinə qədər olan dövrdə COVID-19 koronavirusu 90 000 insanın ölümünə səbəb olub və bu epidemiyanın nə zaman sona çatacağı haqqında məlumatlar isə hələlik yalnız proqnozlara əsaslanır.

COVID-19 və ya koronavirus 2 (SARS-CoV-2) kəskin tənəffüs sindromu ilə yaranan bir infeksiyadır. SARS-CoV-2, əvvəllər insanlarda görünməmiş və yüksək yoluxucu bir xəstəlikdir. SARS coronavirus (SARS-CoV) və qrip virusları ilə eyni tip viruslara aid olsa da, SARS-CoV-2 öz xüsusiyyətləri ilə fərqli bir infeksiyadır. COVID-19 ilk dəfə Çinin Uhan şəhərində (Bazarda satıcı bir qadında) 2019-cu ilin dekabr ayında aşkar edilib və az bir müddət ərzində bütün dünyaya yayılıb. Yayılma sürətinə və ərazisinə görə Ümümdünya Səhiyyə Təşkilatı (WHO) COVID-19 infeksiyasını VƏBA elan edib.

Kanzasda təcili yardım hospitalı. 1918-1919-cu illərdə İspan qripi H1N1 virusu ( Donuz qripi) 40-50 milyon insan həyatına son qoymuşdu.

COVID-19 virusunun adı onun səthində zülal çıxıntıları olduğu üçün (tac kimi) koronavirus adlandırılıb. İnsan koronavirusları ilk dəfə 1960-cı illərin ortalarında təyin olunub. İnsanları yoluxdura biləcək yeddi koronavirus var. İndi tüğyan edən SARS-CoV-2 Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Covid-19 virusu adlandırılıb. Covid-19 virusunun genetik strukturu göstərir ki, bu viris məlum viruslara oxşamır, onların qarışığından ibarət deyil və qeyri-adi xüsusiyyətləri var.

Araşdırmalar göstərir ki, bu virus bir zamanlar pulcuqlu qarışqayeyənlərdə (kələzlərdə), yarasalarda müşahidə edilmiş viruslara oxşayır, lakin tam olaraq onlardan deyil. Koronavirus örtüyü ilə birlikdə diametri 60-220 nm tərtibində, forması dəyişkən olan iri viruslardandır. Onun genomu indiyə qədər məlum olan RNT viruslarının genomundan xeyli böyükdür və 27-32 kb tərtibindədir.

Covid-19 virusu insan hüceyrələrinə necə daxil olur? Alimlər müəyyən ediblər ki, bu virusu əvvəlcə örtüyündə olan qlikoprotein S çıxıntısı ilə hüceyrənin membranına anqiotenzin çevrilməsinə cavabdeh olan ferment 2 (ACE2) ilə birləşir və bundan sonra hüceyrəyə daxil olur. İnfeksiya zamanı S zülalı iki S1 və S2 subvahidinə parçalanır. S1 zülalının birləşdirici reseptor domeni (RBD) birbaşa ACE2-nin peptidaza domeni (PD) ilə birləşir. S2 isə ehtimala görə onun membranla birləşməsində həmsiə rol oynayır. Yoluxma necə baş verir və nəticədə nə olur?

Qrip üçün olan mövcud vaksinlər bu virus üçün yaramır, çünki onların yaratdığı antitellər koronavirusa təsir etmir. Hal-hazırda COVİD-19 qarşı işlədilən preparatlar bunlardır.

Covid-19 virusuna qarşı mübarizə üsulları getdikcə təkmilləşir və onun vaksinin tapılmasına qədər bir sıra suallara cavab tapılması zərurəti yaranıb.

Bu suallardan biri virusun temperaturdan və havanın nəmliyindən asılılığının aydınlaşdırılmasıdır. Yəni, rütubət artdıqca, tərkibində virus olan damcıların ölçüsü daha böyük olur və onlar havada sürətlə çökür, əksinə, isti havada rütubət az olduqda, tənəffüs prosesində damlalar sürətli buxarlanır. Virusla damlalar uzun müddət havada qala bilir, bu zaman yoluxma zamanı və məsafəsi böyüyür. Hal-hazırda Covid-19 virusu ilə mübarizədə dərman preparatları ilə yanaşı, fiziki amillərdən, radioaktiv və ultrabənövşəyi şüalanmadan istifadə edirlər. Bu mübarizədə nanotexnologiyanın da mühüm rolu var. Nanotexnologiyanın bu sahədə tətbiqi köklü bir dəyişiklik üçün böyük ümidlər verir. Bu ümidlərdən biri də yoluxucu xəstəliklərin profilaktikasında nanohissəciklərin istifadəsidir. Nanotexnologiyanın əsas materialları - nanohissəciklər viruslara qarşı mübarizədə çox müxtəlif təsir effektinə və mexanizmə malikdir. Birincisi, onların ölçülərinin çox kiçik olması, səth sahəsinin həcminə nisbətinin böyük olması və tənzimlənən səth yüklərinin mövcudluğu viruslari müalicə etmək üçün cəlbedici bir vasitə olduğuna dəlalət edir. İkincisi, nanohissəciklərdə daxili antiviral xüsusiyyətlərə səbəb olan biomimetik xüsusiyyətlərin olduğu müşahidə edilmişdir. Üçüncüsü, dərmanları kapsula formasına salmaq, sabit quruluşlu modifikasiya (polietilenglikol kimi polimerlərlə) (PEG) olunmuş struktura gətirməklə onların stabillik müddətini artırmaq, dozalarının optimallaşdırılmasını təmin etmək, hədəfə çatdırılmasını yaxşılaşdırmaq imkanı verir. Hal-hazırda yoluxucu virusları, virus RNT-ni, virus zülallarını yaxşı tutma qabiliyyətinə malik olan termofil hidrogellərdən - “nanotrap”lardan, liposomlardan istifadə edirlər. Nanohissəciklərin, xüsusilə gümüş nanohissəciklərinin antiseptic, antiviral effektləri imkan verir ki, onlardan Covid-19 virusuna qarşı mübarizədə istifadə edilsin.

Bakı Dövlət Universitetində bioloji sintez yolu ilə alınmış toksik olmayan formaları hal-hazırda geniş tətbiq oluna bilər. Covid-19 virusuna qarşı mübarizədə istifadə edilən maskalar, xalatlar, üst geyimlərinə tərkibində gümüş nanohissəcikləri olan məhlulların hopdurulması və həmçinin onların təkrar sterilizasiyasında istifadəsi mühüm praktiki əhəmiyyət kəsb edir.

Sonda onu qeyd etmək olar ki, xoşbəxtlikdən, bəşəriyyətin pandemiyalar, onları yaradan səbəblər, onlara qarşı mübarizə üsulları haqqında məlumatları və fəaliyyəti xeyli dərəcədə yaxşılaşmışdır və bu da ümid verir ki, tarixdə baş verən pandemiyalarda olan insan ölümləri qədər itkilər hal-hazırda rastlaşdığımız Covid-19 pandemiyasında baş verməyəcək.

**Məhəmmədəli Ramazanov**
***professor***

**İsmət Əhmədov**
***dosent***


Buraxılışa məsul redaktor: Afaq Sadıqova

Buraxılışın redaksiya heyəti: Əliş Ağamirzəyev, Vüqar Ziferoğlu, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Ahmədli

Dizayn-tərtibat: Kamran Şıxlı

Çapa imzalandı: 30.04.2020
Tiraj: 1000 nüsxə



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.